DÜNYA XƏBƏRLƏRİ

# Litva Rusiya və Belarusla sərhədlərini keçilməz edəcək

indicə




Litva-Belarus sərhədi

Litva hökuməti Milli Müdafiə Nazirliyinin Rusiya və Belarusla sərhədlərdə "hərbi hərəkətliliyə qarşı tədbirlər" layihəsini təsdiqləyib. Məqsəd mümkün düşmən qüvvələrinin ölkəyə daxil olmasını çətinləşdirməkdir. Bundan ötrü Müdafiə Nazirliyi mövcud tədbirləri genişləndirəcək, yeni tədbirlər həyata keçirəcək.

Müdafiə nazirinin müavini **Tomaş Mikelkeviçyus** bildirib ki, sərhədin Litva tərəfində ərazi xəndəklərlə möhkəmləndiriləcək, bataqlıqlar bərpa olunacaq, əlavə maneələr yaradılacaq. Bunun üçün Litva ordusunun strukturunda xüsusi bölmə qurulacaq.

"Keçilməz zolaq" Belarus və Rusiyanın Kalininqrad vilayəti ilə sərhədlər boyunca yaradılacaq, 20 metr enində olacaq. Müdafiə Nazirliyinin müəyyən edəcəyi əməliyyat

rayonlarında səddin eni 150 metrədək artırılacaq. Proqramın birinci mərhələsi 2028-ci ilin sonunadək, ikinci mərhələsi isə 2030-cu ilin sonunadək başa çatdırıla bilər, ikinci mərhələdə bataqlıqların bərpası nəzərdə tutulur.

Litvanın baş naziri **Mindauqas Sinkeviçyus** avqustun 6-da deyib ki, hökumət və kəşfiyyat Rusiyadan gələn təhlükəni kiçiltmək istəmir, amma vətəndaşların narahat olmasına ehtiyac yoxdur. Sinkeviçyus Belarusdan qanunsuz miqrant axınını, Latviyanın hava məkanının sərhədlərini pozan naməlum dronları və hava şarlarını indiyədək baş vermiş hibrid hücumlara nümunə kimi göstərib.

Litvanın hərbi kəşfiyyatı iyunda bildirib ki, hazırda Rusiyanın Baltikyanı ölkələrə hücuma hazırlaşmasının əlamətləri yoxdur, ancaq təxribat və diversiya aktları təhlükəsi qalır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur